# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**№ 512**

**Bakı şəhəri, 28 dekabr 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə" 2014-cü il 7 fevral tarixli 40 nömrəli və "Viza blankının doldurulması Qaydası"nın, "Viza almaq üçün ərizə-anket"in nümunəsinin və "Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti"nin nümunəsinin təsdiq edilməsi haqqında" 2014-cü il 19 mart tarixli 87 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1623-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 793 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 195; 2015, № 10, maddə 1222; 2016, № 8, maddə 1451; 2018, № 4, maddə 822) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün ərizə-anket" üzrə:

1.1.1. aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 10-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir)<br>*Period selected for consideration of your current application (failure to obtain the outcome of the application in time does not affect the amount of the state fee to be paid for the selected period)* | 1 (bir) iş günü<br>(1 (one) working day)<br>☐ | 3 (üç) iş günü<br>(3 (three) working days)<br>☐ |

1.1.2. aşağıdakı məzmunda 11.5-ci bənd əlavə edilsin:

| |
|---|
| 11.5. əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin atasının, anasının, ərinin (arvadının), övladının, qardaşının, bacısının Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadıldıqda<br>*(in case temporary staying period of father, mother, husband (wife), child, brother, sister of a foreigner or stateless person in the Republic of Azerbaijan is extended)* ☐ |

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ərizə-anket" üzrə:

1.2.1. aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 10-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir)<br>Period selected for consideration of your current application *(failure to obtain the outcome of the application in time does not affect the amount of the state fee to be paid for the selected period)* | 15 (on beş) iş günü (15 (fifteen) working days)<br><br>☐ | 20 (iyirmi) iş günü (20 (twenty) working days)<br><br>☐ |

1.2.2. 11.3-cü bənddən "və ya Azərbaycan Respublikasının banklarında həmin məbləğdə pul vəsaiti" sözləri və "or funds in the same amount in the banks of the Republic of Azerbaijan" sözləri çıxarılsın;

1.2.3. aşağıdakı məzmunda 11.3-1-ci, 11.7-1-ci, 11.10-1-ci və 11.10-2-ci bəndlər əlavə edilsin:

| |
|---|
| 11.3-1. Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara müddətli əmanət müqaviləsi əsasında azı 100.000 manat məbləğində pul vəsaiti qoyduqda<br>*(to deposit money in the amount of at least 100.000 manats in the banks functioning in the Republic of Azerbaijan on the basis of a term deposit agreement)* ☐ |
| 11.7-1. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 64.0.6-cı, 64.0.6-1-ci, 64.0.7-ci, 64.0.9-cu, 64.0.10-cu, 64.0.11-ci və 64.0.17-ci maddələrində nəzərdə tutulan hallarda, yəni:<br>*(in cases set out in Articles 64.0.6, 64.0.6-1, 64.0.7, 64.0.9, 64.0.10, 64.0.11 and 64.0.17 of the Migration Code of the Republic of Azerbaijan, mainly:)* ☐ |

| |
|---|
| 11.7-1.1. Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən işə cəlb edildikdə<br>*(to be recruited by the President of the Republic of Azerbaijan or Cabinet of Ministers of the Republic of Azerbaijan)*<br>☐ |
| 11.7-1.2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə xidmətə və ya işə dəvət olunan hərbi qulluqçu və ya mütəxəssis olduqda<br>*(to be a military serviceman or expert invited to serve or work for the Armed Forces of the Republic of Azerbaijan)*<br>☐ |
| 11.7-1.3. kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasında akkreditə olunmuş əməkdaşı olduqda<br>*(to be an accredited employee of the mass media in the Republic of Azerbaijan)*<br>☐ |
| 11.7-1.4. dənizçi olduqda<br>*(to be a seaman)*<br>☐ |
| 11.7-1.5. ali təhsil müəssisələrində mühazirə kurslarının oxunması üçün dəvət edilən professor-müəllim heyəti və ya mühazirəçi olduqda<br>*(to be a professor, teacher or lecturer invited to deliver lectures at higher education institutions)*<br>☐ |
| 11.7-1.6. incəsənət işçisi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçmiş idman klublarına işə dəvət olunan məşqçi və ya idmançı olduqda<br>*(to be an art worker, coach or athlete invited to work for sport clubs officially registered by the Ministry of Justice of the Republic of Azerbaijan)*<br>☐ |
| 11.7-1.7. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən hallarda əmək fəaliyyətinə cəlb olunduqda<br>*(to be involved in labor activity in cases specified by the President of the Republic of Azerbaijan)*<br>☐ |
| 11.10-1. insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda<br>*(to be considered a victim of human trafficking)*<br>☐ |
| 11.10-2. cinayət təqibi orqanlarına yardım göstərdikdə<br>*(to assist criminal investigation bodies)* ☐ |

1.2.4. 19-cu hissə aşağıdakı redaksiyada verilsin:

19. Mən xəbardar edilmişəm:
1. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almaq məqsədilə saxta sənədlərin və ya yalan məlumatların təqdim edilməsi Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməməsinə (müddətinin uzadılmamasına), verilmiş icazənin isə ləğv edilməsinə səbəb olur.
2. Bu ərizə-anketin 10-1-ci hissəsində nəzərdə tutulan müddətin sonuncu günündən 30 (otuz) gün ərzində dövlət rüsumu ödənilmədikdə, müvəqqəti yaşama icazəsi ləğv edilir.
*I have been warned:*
*1. Submission of fraudulent documents or falsified information for the purpose of obtaining permit for temporary residence in the Republic of Azerbaijan shall result in rejection of issuance (extension) of temporary residence permit or cancellation of previously issued permit.*
*2. Temporary residence permit is cancelled, if the state fee is not paid within 30 days from the last day of the period indicated in part 10-1 of this application form.*

1.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ərizə-anket" üzrə:

1.3.1. aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 10-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir) | 35 (otuz beş) gün<br>☐ | 40 (qırx) gün<br>☐ | 50 (əlli) gün<br>☐ | 60 (altmış) gün<br>☐ |

1.3.2. 21-ci hissə aşağıdakı redaksiyada verilsin:

21. Mən xəbərdar edilmişəm:
1. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə almaq məqsədilə saxta sənədlərin və ya yalan məlumatların təqdim edilməsi Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazənin verilməməsinə (müddətinin uzadılmamasına), verilmiş icazənin isə ləğv edilməsinə səbəb olur.
2. Bu ərizə-anketin 10-1-ci hissəsində nəzərdə tutulan müddətin sonuncu günündən 30 gün ərzində dövlət rüsumu ödənilmədikdə, daimi yaşama icazəsi ləğv edilir.

1.4. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsi (müddətin uzadılması) üçün ərizə-anket" üzrə:

1.4.1. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 3-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir) *(Period selected for consideration of your current application (failure to obtain the outcome of the application in time does not affect the amount of the state fee to be paid for the selected period)* | 10 (on) iş günü (10 (ten) working days) ☐ | 15 (on beş) iş günü (15 (fifteen) working days) ☐ | 20 (iyirmi) iş günü (20 (twenty) working days) ☐ |

1.4.2. 6-cı hissədə "Hereby I am aware that in case labour contract is terminated before defined time 1 will be liable for not informing State Migration Service about the case within 5 business days for violation of issuance rules of documents giving right to work and reside in the territory of the Republic of Azerbaijan" sözləri "I have been warned: in case labor contract is prematurely terminated I will be liable for not informing the State Migration Service of the Republic of Azerbaijan about the case within 5 business days, as well as for violating rules on issuance of documents entitling to work and reside in the territory of the Republic of Azerbaijan" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 318; 2016, № 5, maddə 944; 2018, № 5, maddə 1109, № 10, maddə 2141; 2019, № 1, maddə 170, № 5, maddə 954) ilə təsdiq edilmiş 2 nömrəli əlavə -

“Viza almaq üçün ərizə-anket”in “Xidməti Qeydlər/For Official Use Only” hissəsinin mətnində aşağıdakı dəyişikliklər edilsin:

2.1. beşinci abzasda “və turizm” sözləri “, turizm, rəsmi və şəxsi səfər” sözləri ilə əvəz edilsin;

2.2. yeddinci abzasdan “, rəsmi” sözü çıxarılsın;

2.3. səkkizinci abzasdan “və ya Azərbaycan Respublikasının müvafiq qurumlarının vəsatəti” sözləri çıxarılsın.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Əli Əsədov**